**Orucoğlu, Z**. Təki Vətən Yaşasın - Baş leytenantın son nəğməsi / Zəfər Orucoğlu // 525-ci qəzet. - 2025. - 23 oktyabr. - **№ 193**. - S. 14.

**44 günlük Vətən müharibəsi - haqq savaşımız Azərbaycan tarixinin ən şanlı səhifələrindən birinə çevrildi. Azərbaycanın, eləcə də dünya hərb tarixinin yaddaşına qızıl hərflərlə yazılan bu qələbə xalqımızın nə qədər yenilməz və qəhrəman ruhlu olduğunu bir daha sübut etdi.**

Bu şərəfli Zəfərin memarlarından biri də şəhid Əmrah Hüseynli idi - adı dillərdə dastana dönən, igidliyi ilə millətin başını göylərə ucaldan, gələcək nəsillərə torpaq, Vətən, millət sevgisinin nə demək olduğunu göstərən bir əsgər, bir qəhrəman, bir əfsanə.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Əmrah Hüseynli ölümündən sonra "3-cü dərəcli Rəşadət" ordeni, eləcə də "İgidliyə görə", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunaraq, Azərbaycan xalqının qürur mənbəyinə çevrildi.

Əmrah Namiq oğlu Hüseynli 12 oktyabr 1994-cü ildə Cəlilabad rayonunda dünyaya gəlmişdi. Vətən sevgisi və hərbi xidmətə olan istəyi onu daha gənc yaşlarında - 2010-cu ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirdi. Liseydə təhsili dövründə idmanda qazandığı uğurlar, səyi və intizamı ilə həm yaşıdlarının, həm də müəllimlərinin hörmətini qazanmışdı.

Hərbi liseyi yüksək nəticələrlə bitirən Əmrah 2013-2017-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirdi. "Taktiki kəşfiyyat qoşunları komandiri" ixtisası üzrə məzun oldu. Daha sonra Xüsusi Təyinatlı Qüvvələrin "Təməl komanda" kurslarını müvəffəqiyyətlə bitirərək, elit hərbi birliyin sıralarında xidmət etməyə başladı.

2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsi zamanı Əmrah Hüseynli artıq Azərbaycan Ordusunun baş leytenantı idi. O, "Təki Vətən yaşasın!" şüarı ilə döyüşə atıldı. Cəbrayıl, Füzuli və Murovdağ istiqamətlərində gedən ağır döyüşlərdə düşmənə sarsıdıcı zərbələr endirdi, müharibənin ən qaynar nöqtələrində öz hünərini göstərdi.

7 oktyabr tarixində Xocavənd uğrunda gedən döyüşlər zamanı yaxınlığında mərmi partlaması nəticəsində ağır yaralanmasına baxmayaraq, sadəcə 4 gün hospitalda qaldı və sonra - yaralı halda silahdaşlarının yanına döndü. Döyüş yoldaşlarını tək qoymadı, mübarizəyə qaldığı yerdən davam etdi.

26 oktyabrda Xocalı rayonunun Çanaqçı kəndi uğrunda gedən döyüşlərdə Əmrah Hüseynli qəhrəmancasına şəhid oldu.

Əmrah Hüseynli təkcə bir ailənin, bir rayonun yox, bütün Azərbaycan xalqının qürur mənbəyidir. O, şəhadəti ilə bizlərə əbədi bir dərs verdi: Vətən torpağı namusdur, qorunmalı, sevilməli və uğrunda canını əsirgəməməlidir.